**Təsdiq edilmişdir**
**"Unibank" Kommersiya Bankı" Açıq**
**Səhmdar Cəmiyyətinin Səhmdarlarının**
**İllik Ümumi Yığıncağının**
**28 iyun 2022-ci il tarixli**
**03 saylı Protokolu ilə təsdiq edilmişdir**

# "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti 2021-ci il üzrə İLLİK HESABAT

| | |
|---|---|
| 1. Emitentitn təşkilati-hüquqi forması, tam və qısaldılmış adı, dövlət qeydiyyatının tarixi və nömrəsi: | Emitentin təşkilati-hüquqi forması: açıq səhmdar cəmiyyəti;<br>Emitentin tam adı: "UNİBANK" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyəti;<br>qısaldılmış şəkildə "UNİBANK" Kommersiya Bankı<br>Dövlət qeydiyyat tarixi: 27.07.1992,<br>Dövlət qeydiyyat nömrəsi: 1300017201 |
| 2. Emitentin hüquqi ünvanı və olduğu yer; | Ünvan: Azərbaycan Respublikası, AZ1014, Bakı şəhəri, Nəsimi rayonu, Rəşid Behbudov küçəsi 55, 384-cü məhəllə |
| 3. Emitentin adında və təşkilati-hüquqi formasında dəyişikliklər olduqda, emitentin bütün əvvəlki adları və təşkilati-hüquqi formaları, habelə onların qeydiyyata alındığı tarixlər, emitent digər hüquqi şəxsin bölünməsi və ya tərkibindən ayrılması şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxsin adı və təşkilati-hüquqi forması, emitent hüquqi şəxslərin birləşməsi şəklində yenidən təşkil yolu ilə yaradıldıqda, yenidən təşkilin forması, həmin hüquqi şəxslərin adları və təşkilati-hüquqi formaları; | Emitent öz hazırki adını "MBANK" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin 6 dekabr 2002-ci il tarixli Səhmdarlarının Ümumi Yığıncağının qərarı (Protokol № 2) və 27 dekabr 2002-ci il tarixdə "UNİBANK" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinə Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən təsdiq edilmiş dəyişiklik əsasında almışdır. Bank "PROMTEXBANK" Səhmdar Kommersiya Bankının və "MBANK" Səhmdar Kommersiya Bankının Səhmdarlarının 16 sentyabr 2002-ci il tarixli birgə Ümumi Yığıncağının qərarına (protokol № 1) və 15 oktyabr 2002-cil il tarixində Azərbaycan Respublikası Ədliyyə Nazirliyi tərəfindən dövlət qeydiyyatına alınmış Nizamnaməsinə əsasən "PROMTEXBANK" Səhmdar Kommersiya Bankının "MBANK" Səhmdar Kommersiya Bankına qoşulması nəticəsində yenidən təşkil edilmişdir. Bu qoşulma nəticəsində "PROMTEXBANK" Səhmdar Kommersiya Bankının bütün hüquq və vəzifələri "MBANK" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinə keçmişdir. Emitent "MBANK" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin hüquqi varisi olmaqla onun bütün hüquq və öhdəliklərini əldə etmişdir. |
| 4. emitentin hesabat ili ərzində yaranmış və ləğv edilmiş filialları və nümayəndəliklərinin adı, olduqları yer və qeydiyyatları haqqında məlumatlar; | Olmayıb |

| | |
|---|---|
| 5. Emitentin hesabat ili ərzində y aranmış və ləğv edilmiş hər bir törəmə cəmiyyətinin adı, təşkilati-hüquq forması, hüquqi ünvanı, qeydiyyatı haqqında məlumatlar, nizamnamə kapitalında emitentin payı, yaxud cəmiyyətin emitentin törəmə cəmiyyəti hesab olunması üçün əsas olan müqavilənin bağlanma tarixi və qüvvədə olma müddəti: | Olmayıb |
| 6. emitent şirkətlər qrupunun bir hissəsi olduğu təqdirdə qrupun (emitent daxil olmaqla iqtisadiyyatın müxtəlif sahələrində fəaliyyət göstərən bir və ya daha artıq törəmə təşkilatı olan qrupdur) adı; | Deyil. |
| 7. emitentin məşğul olduğu fəaliyyət istiqamətləri: | Bank fəaliyyəti |
| 8. emitent lisenziya və ya icazəyə malik olduqda, onlar üzrə fəaliyyət növləri və qüvvədə olma müddətləri; | - 14 dekabr 2010-cu il tarixli 73 saylı bank fəaliyyətinin həyata keçirilməsi üçün Bank lisenziyası.<br>Fəaliyyət növləri:<br>Milli və xarici valyutada fiziki və hüquqi şəxslərdən depozitlərin və ya digər qaytarılan vəsaitlərin cəlb edilməsi, öz adından və öz hesabına kreditlərin verilməsi, habelə müştərilərin tapşırığı ilə köçürmə və hesablaşma-kassa əməliyyatlarının məcmu halda həyata keçirilməsi və "Banklar haqqında" Azərbaycan Respublikası Qanunu ilə nəzərdə tutulmuş digər fəaliyyət növlərinin həyata keçirilməsi.<br>Lisenziya müddətsizdir. |
| 9. emitentin təklif etdiyi məhsullar və xidmətlər; | Kreditlərin verilməsi, əmanətlərin cəlb olunması, hesablaşma-kassa, valyuta mübadiləsi əməliyyatları, rəqəmsal bankçılıq, kart xidmətləri və digər bank əməliyyatları |
| 10. emitentin işçilərinin sayı və onun rüblük dinamikası; | İşçi sayı:<br>2021 mart- 1384 nəfər<br>2021 iyun - 1414 nəfər<br>2021 sentyabr – 1517 nəfər<br>2021 dekabr - 1664 nəfər |
| 11. emitentin idarəetmə orqanları haqqında məlumat: direktorlar şurası (müşahidə şurası) (olduqda), icra orqanı, audit komitəsi (olduqda), onların üzvlərinin adı, soyadı, atasının adı: | **Müşahidə Şurası:**<br>Eldar Qəribov Mahmud oğlu (Sədr)<br>Emin Quliyev Natiq oğlu ( Sədrin müavini)<br>Elxan Qəribli Əhməd oğlu (üzv)<br>Dr. Kamen Zaxariyev (üzv)<br>Kristof Gabriel Maetze-Engelhardt (üzv)<br><br>**İdarə Heyəti:**<br>Faiq Hüseynov Arif oğlu (Sədr)<br>Fərid Abuşov Şakir oğlu (Sədrin birinci müavini)<br>Faiq Zeynalov Vahib oğlu (üzv)<br>Emin Rəsulzadə Fərid oğlu (üzv)<br>Heybət Qədirov Həsənağa oğlu (üzv) |

| | |
|---|---|
| | **Audit Komitəsi:**<br>Samir Balayev Həsən oğlu (Sədr)<br>Səbinə Tağıyeva Ramizovna (üzv)<br>Adil Hüseynov Şeyruz oğlu (üzv) |
| 12 emitentin fiziki və hüquqi şəxs olan səhmdarlarının (payçılarının) ayrı-ayrılıqda sayı; | 9 fiziki və 1 hüquqi şəxs adi adlı səhm sahibi |
| 13. emitentin nizamnamə kapitalının beş faizi və daha artıq həcmdə səsli səhmlərinə (paylara) malik olan şəxslər (fiziki şəxsin soyadı, adı, atasının adı; hüquqi şəxsin adı, olduğu yer və VÖEN-i), onların hər birinə məxsus olan səhmlərin sayı (səhmlərin hər növü üzrə ayrı-ayrılıqda göstərilir) və emitentin nizamnamə kapitalında payı; | 1.Qəribov Eldar Mahmud oğlu, 41 654 363 ədəd sənədsiz, adlı adi səhm;<br>Emitentin Nizamnamə kapitalında 86.6960 % malikdir.<br>2. Canley Finance S.A (Lüksemburq Böyük Hersoqluğu, Giyom Şneyder k., L-2522), 3 512 025 ədəd sənədsiz, adlı adi səhm;<br>Emitentin Nizamnamə kapitalında 7,3096% malikdir. |
| 14. nizamnamə kapitalında emitentin payı beş faizdən az olmayan hüquqi şəxslər (hüquqi şəxsin adı, olduğu yer, VÖEN-i, nizamnamə kapitalında emitentin payı); | 1. Hüquqi ünvanı- Bakı şəhəri, Nəsimi rayonu, Rəşid Behbudov küçəsi 55, 384-cü məhəllə, faktiki ünvanı – Bakı şəhəri, Xətai rayonu, 8 noyabr prospekti, "Azure" Business Center, 12-ci mərtəbə, VÖEN: 1401258741 olan "Unicapital" Açıq Səhmdar Cəmiyyəti – nizamnamə kapitalında pay- 100%.<br>2. Hüquqi ünvanı- Bakı Şəhəri Nəsimi rayonu, Alı Mustafayev 5A, VÖEN: 1400980591 olan "MilliKart" Məhdud Məsuliyyətli Cəmiyyəti-nizamnamə kapitalında pay-8%<br>3. Hüquqi ünvanı- Bakı Şəhəri Yasamal rayonu, Cəfər Cabbarlı küçəsi, ev 40C, VÖEN: 1305349901 olan "Azərbaycan Kredit Bürosu" Məhdud Məsuliyyətli Cəmiyyəti - nizamnamə kapitalında pay- 12.50% |
| **15. emitentin səhmdarlarının (payçılarının) hesabat ili ərzində keçirilmiş yığıncaqları barədə məlumat:** | |
| 15.1. yığıncağın keçirilmə tarixi və yeri (ünvanı): | 1. Bakı şəhəri, R.Behbudov küçəsi 55 ünvanında 19 mart 2021-ci il tarixində keçirilən Səhmdarların növbədənkənar Ümumi Yığıncağı.<br>2. Bakı şəhəri, R.Behbudov küçəsi 55 ünvanında 19 may 2021-ci il tarixində keçirilən Səhmdarların İllik Ümumi Yığıncağı.<br>3. Bakı şəhəri, R.Behbudov küçəsi 55 ünvanında 24 iyun 2021-ci il tarixində keçirilən Səhmdarların növbədənkənar Ümumi Yığıncağı.<br>4. Bakı şəhəri, R.Behbudov küçəsi 55 ünvanında 22 sentyabr 2021-ci il tarixində keçirilən Səhmdarların növbədənkənar Ümumi Yığıncağı. |

| | |
|---|---|
| | 5. Bakı şəhəri, R.Behbudov küçəsi 55 ünvanında 17 noyabr 2021-ci il tarixində keçirilən Səhmdarların növbədənkənar Ümumi Yığıncağı.<br>6. Bakı şəhəri, R.Behbudov küçəsi 55 ünvanında 09 dekabr 2021-ci il tarixində keçirilən Səhmdarların növbədənkənar Ümumi Yığıncağı. |
| **15.2 ümumi yığıncaqda qəbul edilmiş qərarlar;** | **19 mart 2021-ci il tarixində Səhmdarların növbədənkənar Ümumi Yığıncağında qəbul edilən qərarlar ( 1 saylı protokol)**<br><br>1. "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin 2020-ci il üzrə hesabatlarının təsdiqi və mənfəətin bölüşdürülməsi barədə;<br>2. Kənar auditorun təyin edilməsi barədə.<br><br>**19 may 2021-ci il tarixində Səhmdarların İllik Ümumi Yığıncağında qəbul edilən qərarlar ( 2 saylı protokol)**<br><br>1. 2020-ci il üzrə "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin kənar auditoru tərəfindən təsdiq edilmiş konsolidə əsasında hazırlanmış maliyyə hesabatlarının təsdiqi.<br>2. "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin korporativ sənədlərinin qəbul edilməsi haqqında.<br>3. "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin təşkilati, o cümlədən idarəetmə orqanlarına dair məsələlərin müzakirəsi.<br><br>**24 iyun 2021-ci il tarixində Səhmdarların Növbədənkənar Ümumi Yığıncağında qəbul edilən qərarlar ( 3 saylı protokol)**<br><br>1. 2020-ci il üzrə "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin kənar auditoru tərəfindən təsdiq edilmiş konsolidə əsasında hazırlanmış maliyyə hesabatlarının təsdiqi.<br>2. Digər məsələlərin müzakirəsi.<br><br>**22 sentyabr 2021-ci il tarixində Səhmdarların Növbədənkənar Ümumi Yığıncağında qəbul edilən qərarlar ( 4 saylı protokol)**<br><br>1. "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin Nizamnamə kapitalının artırılması barədə. |

| | |
|---|---|
| | 2. "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətin"də Səhmdarların Ümumi Yığıncağının keçirilməsi Qaydalar"ının təsdiq edilməsi barədə.<br><br>**17 noyabr 2021-ci il tarixində Səhmdarların Növbədənkənar Ümumi Yığıncağında qəbul edilən qərarlar ( 5 saylı protokol)**<br><br>1. "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin İdarə Heyətinin tərkibində dəyişiklik edilməsi barədə.<br><br>**09 dekabr 2021-ci il tarixində Səhmdarların Növbədənkənar Ümumi Yığıncağında qəbul edilən qərarlar ( 6 saylı protokol)**<br><br>1. "Unibank" Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin idarəetmə orqanlarına dair məsələlərin müzakirəsi.<br>2. "Unibank" Kommersiya Bankı Açıq Səhmdar Cəmiyyətinin Nizamnaməsinə dəyişikliklər edilməsi haqqında.<br>3. Digər məsələlər. |
| **16.emitentin dövriyyədə olan investisiya qiymətli kağızlarının buraxılışları haqqında məlumat (investisiya qiymətli kağızların hər buraxılışı ayrı-ayrılıqda göstərilir):** | |
| 16.1. investisiya qiymətli kağızın növü və forması; | 36 000 ədəd faizli, sənədsiz, adlı təmin edilməmiş istiqraz.<br>48 046 455 ədəd sənədsiz adi adlı səhm. |
| 16.2 investisiya qiymətli kağızların dövlət qeydiyyat nömrəsi və qeydiyyat tarixi; | -1 000 ədəd faizli, sənədsiz, adlı təmin edilməmiş istiqrazın dövlət qeydiyyat nömrəsi AZ2011002022, dövlət qeydiyyat tarixi 28.11.2017-ci il;<br>-15 000 ədəd faizli, sənədsiz, adlı təmin edilməmiş istiqrazın dövlət qeydiyyat nömrəsi AZ2012002021, dövlət qeydiyyat tarixi 20.10.2021-ci il;<br>-20 000 ədəd faizli, sənədsiz, adlı təmin edilməmiş istiqrazın dövlət qeydiyyat nömrəsi AZ2013002020 dövlət qeydiyyat tarixi 15.12.2021-ci il;<br>-20 796 000 ədəd sənədsiz, adlı adi səhmin dövlət qeydiyyat nömrəsi AZ1003002024, dövlət qeydiyyat tarixi 29.03.2012-ci il;<br>-18 059 226 ədəd sənədsiz, adlı adi səhmin dövlət qeydiyyat nömrəsi AZ1003002024, dövlət qeydiyyat tarixi 18.05.2017 -ci il;<br>- 5 147 100 ədəd sənədsiz, adlı adi səhmin dövlət qeydiyyat nömrəsi AZ1003002024, dövlət qeydiyyat tarixi 23.08.2017 -ci il;<br>-2 205 893 ədəd sənədsiz, adlı adi səhmin dövlət qeydiyyat nömrəsi AZ1003002024, dövlət qeydiyyat tarixi 12.12.2017-ci il; |

| | |
|---|---|
| | -1 838 236 ədəd sənədsiz, adlı adi səhmin dövlət qeydiyyat nömrəsi AZ1003002024, dövlət qeydiyyat tarixi 21.10.2021-ci il. |
| 16.3 investisiya qiymətli kağızların miqdarı və nominal dəyəri; | - 1 000 ədəd faizli, sənədsiz, adlı təmin edilməmiş istiqraz, hər birinin nominal dəyəri 10 000 ABŞ dolları.<br>- 15 000 ədəd faizli, sənədsiz, adlı təmin edilməmiş istiqraz, hər birinin nominal dəyəri 1 000 ABŞ dolları.<br>- 20 000 ədəd faizli, sənədsiz, adlı təmin edilməmiş istiqraz, hər birinin nominal dəyəri 1 000 manat<br>- 48 046 455 ədəd sənədsiz adlı adi səhm, nominal dəyəri 2.72 manat. |
| 16.4.investisiya qiymətli kağızlar buraxılışının məcmu nominal dəyəri; | - 25 000 000 ABŞ dolları məbləğində istiqraz.<br>- 20 000 000 manat məbləğində istiqraz.<br>- 130 686 357.6 manat məbləğində səhm. |
| 16.5. hesabat ili ərzində emitent tərəfindən səhmlər üzrə ödənilmiş dividendlər haqqında məlumat (hesabat ilində səhmlərin hər növü üzrə ödənilmiş dividendlərin məbləği göstərilir); | Sənədsiz adlı adi səhmlər üzrə 3 234 575.33 manat məbləğində dividend ödənilmişdir. |
| 16.6 faizli istiqrazlar buraxılışı haqqında məlumatda-istiqrazlar üzrə gəlirliyinin illik faiz dərəcəsi; | - 1 000 ədəd faizli təmin edilməmiş sənədsiz istiqraz üzrə İstiqrazın nominal dəyərindən 6 faiz illik olmaqla istiqrazların tədavül müddəti ərzində hər 90 (doxsan) təqvim gününün başa çatması tarixindən növbəti 3 iş günündən gec olmayaraq faiz ödənilir.<br>-15 000 ədəd faizli təmin edilməmiş sənədsiz istiqraz üzrə İstiqrazın nominal dəyərindən 6 faiz illik olmaqla istiqrazların tədavül müddəti ərzində hər 3 (üç) təqvim ayından bir faiz ödənilir.<br>- 20 000 ədəd faizli təmin edilməmiş sənədsiz istiqraz üzrə İstiqrazın nominal dəyərindən 9 faiz illik olmaqla istiqrazların tədavül müddəti ərzində hər 90 (doxsan) təqvim gününün başa çatması tarixindən növbəti 3 iş günündən gec olmayaraq faiz ödənilir. |
| 16.7 investisiya qiymətli kağızların yerləşdirildiyi və ya tədavüldə olduğu fond birjasının adı və olduğu yer (olduqda): | "Bakı Fond Birjası" QSC, Bakı şəhəri, Yasamal rayonu, Həsən bəy Zərdabi küçəsi 2A, Şokolad Tower, AZ1141. |
| 17.emitent tərəfindən bağlanmış xüsusi əhəmiyyətli əqdlər barədə məlumatlar:<br>17.1.əqdin məbləği;<br>17.2. hesabat tarixinə əqdin ödənilməmiş hissəsi; | Belə əqd bağlanılmamışdır. |
| 18. emitent tərəfindən aidiyyəti şəxslərlə bağlanılmış əqdlər barədə məlumatlar:<br>18.1. bağlanılmış əqdin mahiyyəti, tarixi və məbləği; | Aidiyyəti şəxslərlə bağlanmış əqdlərin ümumi məbləği: 5,685,090.04 manat.<br>Ümumi sayı: 185 ədəd |

| | |
|---|---|
| 18.2.aidiyyəti şəxs barədə məlumat və emitentlə aidiyyət əlaqəsi. | Müştəri baxımından – 5 hüquqi şəxs, qalanı fiziki şəxs |
| 19. illik hesabatın təsdiq edildiyi ümumi yığıncağın tarixi | 28 iyun 2022-ci il |
| 20. hesabatın açıqlanma mənbəyi haqqında məlumat | "Unibank" Kommersiya Bankının rəsmi saytı və kütləvi informasiya vasitələri, qanunvericiliklə müəyyən edilmiş vahid məlumat resursu. |

İdarə Heyətinin Sədri Faiq Hüseynov

Maliyyə üzrə Direktor,
Baş maliyyə inzibatçısı Faiq Zeynalov

KOMMERSİYA BANKI UNİBANK COMMERCIAL BANK

"KPMG Audit Azərbaycan" MMC
Port Baku Cənub Qülləsi
Neftçilər prospekti 153,
Bakı, Azərbaycan AZ1010
Telefon + 994 12 404 89 10
Faks + 994 12 404 89 14
İnternet www.kpmg.az

# Müstəqil auditorların hesabatı

## "Unibank Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin Səhmdarlarına və Müşahidə Şurasına

### Rəy

Biz "Unibank Kommersiya Bankı" Açıq Səhmdar Cəmiyyətinin ("Bank") və onun törəmə müəssisəsinin ("Qrup") 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyəti haqqında konsolidə edilmiş hesabatdan və həmin tarixdə tamamlanan il üzrə mənfəət və ya zərər və sair məcmu gəlir, kapitalda dəyişikliklər və pul vəsaitlərinin hərəkəti haqqında konsolidə edilmiş hesabatlardan, eləcə də əsas mühasibat uçotu siyasətləri və sair izahedici məlumatları əhatə edən qeydlərdən ibarət olan konsolidə edilmiş maliyyə hesabatlarının auditini apardıq.

Bizim rəyimizə görə, əlavə edilən konsolidə edilmiş maliyyə hesabatları bütün əhəmiyyətli aspektlər baxımından Qrupun 31 dekabr 2021-ci il tarixinə maliyyə vəziyyətini və həmin tarixdə tamamlanan il üzrə konsolidə edilmiş maliyyə nəticələrini və konsolidə edilmiş pul vəsaitlərinin hərəkətini Maliyyə Hesabatlarının Beynəlxalq Standartlarına (MHBS) uyğun olaraq düzgün əks etdirir.

### Rəy üçün əsas

Biz audit yoxlamasını Beynəlxalq Audit Standartlarına (BAS) uyğun aparmışıq. Həmin standartlara əsasən bizim məsuliyyətimiz hesabatımızın *"Konsolidə edilmiş maliyyə hesabatlarının auditinə görə auditorların məsuliyyəti"* bölməsində təqdim edilir. Biz Mühasiblər üçün Beynəlxalq Etik Standartlar Şurasının Peşəkar Mühasiblərin Beynəlxalq Etika Məcəlləsinə (Beynəlxalq Müstəqillik Standartları ilə birlikdə) *(IESBA Məcəlləsi)* və Azərbaycan Respublikasında konsolidə edilmiş maliyyə hesabatlarının auditinə tətbiq olunan etik tələblərə əsasən Qrupdan müstəqilik və bu tələblər və IESBA Məcəlləsi üzrə digər etik öhdəliklərimizi yerinə yetirmişik. Biz hesab edirik ki, əldə etdiyimiz audit sübutu auditor rəyinin bildirilməsi üçün yetərli və müvafiq əsası təmin edir.



Müstəqil auditor: "KPMG Audit Azərbaycan" MMC Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq yaradılmışdır və məsuliyyəti zəmanətlə məhdudlaşdırılmış ingilis şirkəti olan "KPMG International Limited" şirkətinə bağlı müstəqil üzv şirkətlər şəbəkəsinin üzvüdür.

## Əsas audit məsələləri

Əsas audit məsələləri, bizim peşəkar mühakiməmizə görə, cari dövrün konsolidə edilmiş maliyyə hesabatlarının auditi zamanı ən əhəmiyyətli saydığımız məsələlərdir. Bu məsələlərə bütövlükdə konsolidə edilmiş maliyyə hesabatlarının auditi və müvafiq rəyin formalaşdırılması kontekstində baxılmışdır. Biz bu məsələlərlə bağlı sözügedən kontekstdən kənar rəy bildirmirik.

### Müştərilərə verilmiş kreditlər üzrə kredit zərəri ehtiyatı

Konsolidə edilmiş maliyyə hesabatlarına dair 8-ci və 28-ci qeydə baxmağınız xahiş olunur.

| Əsas audit məsələsi | Audit komandamızın məsələnin həllinə yanaşması |
|---|---|
| Müştərilərə verilmiş kreditlər cəmi aktivlərin 65%-ni təşkil edir və müntəzəm əsasla qiymətləndirilən və istifadə edilmiş mülahizələrdən asılı olan ehtimal olunan kredit zərərləri ("EOKZ") üzrə ehtiyat çıxılmaqla qeydə alınır.<br><br>Ehtimal olunan kredit zərərlərinin qiymətləndirilməsi üçün Rəhbərliyin müşahidə edilən tarixi məlumatları, cari iqtisadi şəraiti və mövcud proqnoz məlumatlarını nəzərə alaraq, defolt ehtimalını (PD), defolt vəziyyətində riskə məruz qalmanı (EOD) və defolt zamanı yaranan zərəri (LGD) müəyyən etmək üçün əhəmiyyətli mülahizələr və qiymətləndirmə üsulları tətbiq etməsi tələb olunur. Müştərilərə verilmiş kreditlər üzrə EOKZ-nin fərdi əsasla hesablanması üçün borcalanların cari və proqnozlaşdırılan maliyyə göstəricilərini və realizasiya oluna bilən girovdan gözlənilən gəlirləri nəzərə alaraq, hesablanmış gələcək pul axınlarının ssenari təhlili tələb olunur.<br><br>Müştərilərə verilmiş kreditlərlə bağlı kredit zərəri üzrə ehtiyat qalıqların Qrupun konsolidə edilmiş maliyyə vəziyyətinə münasibətdə əhəmiyyətli olması və MHBS 9 *Maliyyə alətləri* standartı əsasında EOKZ-nin qiymətləndirilməsi ilə bağlı | Biz MHBS 9 *Maliyyə alətləri* standartının tələblərinə riayət etmək məqsədilə EOKZ-nin hesablanması ilə bağlı Qrupun metodologiya və siyasətlərinin əsas aspektlərini təhlil etmək üçün maliyyə risklərinin idarə edilməsi üzrə mütəxəssislərimizi cəlb etdik.<br><br>Biz EOKZ üzrə ehtiyatın hesablanması ilə bağlı rəhbərliyin irəli sürdüyü peşəkar mülahizə və mühakimələrin adekvatlığını təhlil etmək məqsədilə aşağıdakı prosedurları icra etdik::<br><br>Biz EOKZ-də mümkün dəyişikliklərin konsolidə edilmiş maliyyə hesabatlarına mühüm təsirə malik ola bildiyi hüquqi şəxslərə verilmiş kreditlər üzrə, maliyyə və qeyri-maliyyə məlumatlarını, eləcə də Qrupun tətbiq etdiyi mülahizələr və peşəkar mühakimələri təhlil etməklə, müvafiq Mərhələlərin Qrup tərəfindən düzgün təyin edilib-edilmədiyini test etdik.<br><br>Biz hüquqi şəxslərə verilmiş kreditlər nümunəsi üzrə PD, LGD və EAD-nin hesablanması üçün ilkin məlumatların düzgünlüyünü test etdik.<br><br>Biz EOKZ-nin fərdi əsasla qiymətləndirildiyi hüquqi şəxslərə verilmiş 3-cü Mərhələdə olan kreditlər nümunəsi üzrə Qrupun gələcək pul axınlarını, o cümlədən realizasiya oluna bilən girovdan gözlənilən gəlirləri və onların gözlənilən satış şərtlərini proqnozlaşdırmaq üçün istifadə etdiyi mülahizələri öz anlayışımız və ictimaiyyətə açıq olan bazarla bağlı məlumatlar əsasında qiymətləndirdik.<br><br>Biz fiziki şəxslərə verilmiş kreditlər üzrə PD, LGD və EAD-nin hesablanması üçün ilkin məlumatların düzgünlüyünü, gecikmə hallarının və kredit ödənişlərinin əsas sistemlərdə vaxtında qeydə alınmasını və kreditlərin müvafiq Mərhələlərə bölünməsini test etdik. Biz seçim əsasında ilkin məlumatları dəstəkləyici sənədlərlə üzləşdirdik.<br><br>Biz müştərilərə verilmiş cəmi kreditlər üzrə nəzarət vasitələrinin dizaynı və tətbiqini, o cümlədən informasiya risklərinin idarə edilməsinə mütəxəssislərinin cəlb edilməsini, EOKZ-nin hesablanması modellərinə daxil edilən ilkin məlumatların tamlığı və dəqiqliyini, gecikmə hallarının və kredit ödənişlərinin əsas sistemlərdə vaxtında |

| | |
|---|---|
| mürəkkəblik və mülahizə ilə əlaqədar olaraq, əsas audit məsələsidir. | qeydə alınmasını test etdik. Biz seçim əsasında ilkin məlumatları dəstəkləyici sənədlərlə üzləşdirdik.<br>Biz həmçinin konsolidə edilmiş maliyyə məlumatlarındakı açıqlamaların Qrupun kredit riskinə məruz qalmasını düzgün əks etdirib-etdirmədiyini qiymətləndirdik. |

## Digər məsələ

Qrupun 31 dekabr 2020-ci il tarixinə və və həmin tarixdə tamamlanan il üzrə konsolidə edilmiş maliyyə hesabatlarının auditini başqa auditorlar həyata keçirmiş və bu auditorlar 31 may 2021-ci il tarixində həmin maliyyə hesabatlarına dair müsbət rəy bildirmişdir.

## Konsolidə edilmiş Maliyyə Hesabatlarına görə Rəhbərliyin və İdarəetməyə Məsul Şəxslərin Məsuliyyəti

Rəhbərlik konsolidə edilmiş maliyyə hesabatlarının MHBS-ə uyğun hazırlanmasına və düzgün təqdimatına, dələduzluq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflərin müşahidə olunmadığı konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması üçün öz qənaətinə əsasən zəruri saydığı daxili nəzarət sisteminə görə məsuliyyət daşıyır.

Rəhbərliyin Qrupu likvidasiya etmək və ya əməliyyatları dayandırmaq niyyətinin olduğu və ya qeyd edilən tədbirlərdən başqa real alternativinin olmadığı hallar istisna olmaqla, konsolidə edilmiş maliyyə hesabatlarının hazırlanması zamanı rəhbərlik Qrupun fasiləsiz fəaliyyət göstərmək qabiliyyətinin qiymətləndirilməsi, müvafiq hallarda fəaliyyətin fasiləsizliyi ilə bağlı məsələlərin açıqlanması və hesabatların fəaliyyətin fasiləsizliyi prinsipi əsasında hazırlanmasına görə məsuliyyət daşıyır.

İdarəetməyə məsul şəxslər Qrupun maliyyə hesabatlarının hazırlanması prosesinə nəzarətə görə məsuliyyət daşıyırlar.

## Konsolidə edilmiş Maliyyə Hesabatlarının Auditinə görə Auditorların Məsuliyyəti

Bizim məqsədimiz konsolidə edilmiş maliyyə hesabatlarında, dələduzluq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, əhəmiyyətli təhriflərə yol verilmədiyinə dair kifayət qədər əminlik əldə etmək və rəyimizi əhatə edən auditor hesabatını təqdim etməkdən ibarətdir. Kifayət qədər əminlik dedikdə yüksək əminlik səviyyəsi nəzərdə tutulur, lakin bu BAS əsasında aparılmış auditin əhəmiyyətli təhrifi hər zaman aşkar edəcəyinə zəmanət vermir. Təhriflər dələduzluq və ya səhv nəticəsində yarana bilər və istifadəçilərin bu konsolidə edilmiş maliyyə hesabatları əsasında qəbul etdikləri iqtisadi qərarlara ayrı-ayrılıqda, yaxud ümumilikdə təsir edə bilməsi əsaslı şəkildə ehtimal edildiyi halda əhəmiyyətli hesab edilir.

BAS əsasında aparılmış audit çərçivəsində biz bütün audit müddətində peşəkar mühakimə yürüdür və peşəkar inamsızlığımızı qoruyub saxlayırıq. Biz həmçinin:

— Dələduzluq və ya səhv nəticəsində yaranmasından asılı olmayaraq, konsolidə edilmiş maliyyə hesabatlarının əhəmiyyətli təhrifləri riskini aşkar edir və qiymətləndirir, həmin risklərə uyğun audit prosedurlarını işləyib hazırlayır və icra edir, rəyimizi bildirmək üçün yetərli və müvafiq audit sübutunu əldə edirik. Dələduzluq nəticəsində yaranmış əhəmiyyətli təhrifin aşkarlanmaması riski səhv nəticəsində yaranmış əhəmiyyətli təhrifin aşkarlanmaması riskindən daha yüksəkdir, çünki dələduzluq gizli sözləşmə, saxtakarlıq, qərəzli hərəkətsizlik, məlumatın təhrifli təqdimatı və ya daxili nəzarətə əməl olunmamasından ibarət ola bilər.

— Auditlə bağlı daxili nəzarətə Qrupun daxili nəzarət sisteminin səmərəliliyinə dair rəyin bildirilməsi üçün deyil, şəraitə uyğun zəruri audit prosedurlarının planlaşdırılması məqsədilə baxırıq.

— İstifadə edilmiş uçot siyasətinin məqsədəuyğunluğunu və rəhbərlik tərəfindən aparılmış uçot qiymətləndirmələrinin və əlaqəli açıqlamaların kafiliyini qiymətləndiririk.

— Rəhbərlik tərəfindən mühasibat uçotunun fasiləsiz aparılma prinsipinin istifadə edilməsinin məqsədəuyğunluğunun və əldə edilmiş audit sübutları əsasında Qrupun fəaliyyətini fasiləsiz davam etdirmək imkanını əhəmiyyətli dərəcədə şübhə altına qoya bilən hadisələrlə və ya şəraitlərlə bağlı əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olub-olmamasına dair nəticə çıxarırıq. Əhəmiyyətli qeyri-müəyyənliyin mövcud olması qənaətinə gəldiyimiz halda, audit hesabatımızda konsolidə edilmiş maliyyə hesabatlarındakı əlaqəli açıqlamalara diqqət cəlb etməliyik, bu cür açıqlamalar qeyri-dəqiq olduğu halda isə fərqli rəy verməliyik. Gəldiyimiz nəticələr audit hesabatımızın hazırlandığı tarixədək əldə edilmiş sübutlara əsaslanır. Bununla belə, sonrakı hadisələr və ya şərait Qrupu fasiləsiz fəaliyyətini dayandırmağa məcbur edə bilər.

— Açıqlamalar da daxil olmaqla, konsolidə edilmiş maliyyə hesabatlarının ümumi təqdimatını, strukturunu və məzmununu, habelə maliyyə hesabatlarında əsas əməliyyatların və hadisələrin ədalətli şəkildə əks etdirilib-etdirilməməsini dəyərləndiririk.

— Konsolidə edilmiş maliyyə hesabatları haqqında rəy bildirmək üçün Qrup daxilində müəssisələr və ya kommersiya fəaliyyəti haqqında maliyyə məlumatına dair yetərli müvafiq audit sübutu əldə edirik. Biz qrup auditinin istiqaməti, belə auditə nəzarət və nəticələrinə görə məsuliyyət daşıyırıq. Biz öz audit rəyimizə görə müstəsna məsuliyyət daşıyırıq.

Biz, digər məsələlərlə yanaşı, auditin planlaşdırılan həcmi və müddəti və mühüm audit nəticələri, o cümlədən audit zamanı daxili nəzarət sistemində aşkar etdiyimiz əhəmiyyətli çatışmazlıqlarla bağlı idarəetməyə məsul şəxsləri məlumatlandırırıq.

Biz həmçinin idarəetməyə məsul şəxslərə müstəqilliklə bağlı etik tələblərə cavab verdiyimizə dair hesabat təqdim edir və müstəqilliyimizə və uyğun olduqda, təhlükələri aradan qaldırmaq üçün gördüyümüz tədbirlərə və tətbiq edilmiş təhlükəsizlik tədbirlərinə təsir göstərəcəyi düşünülə bilən bütün əlaqələrimiz və digər məsələlər barədə onları məlumatlandırırıq.

İdarəetməyə məsul şəxslərə bildirilən məsələlər arasında biz cari dövrün konsolidə edilmiş maliyyə hesabatlarının auditində ən əhəmiyyətli olanları və bu səbəbdən, əsas audit məsələlərini təşkil edənləri müəyyən edirik. Qanun və ya normativ aktların məsələnin açıqlanmasını qadağan etdiyi və ya çox nadir hallarda açıqlamanın mənfi nəticələrinin ictimai maraqlara zərərinin xeyrindən çox olması əsaslı olaraq gözlənildiyi üçün məsələnin hesabatda göstərilməməli olduğuna qərar verdiyimiz hallar istisna olmaqla, biz belə məsələləri öz audit hesabatımızda təsvir edirik.

Hazırkı müstəqil auditorlar hesabatının hazırlanması ilə nəticələnmiş audit tapşırığının rəhbəri:

"KPMG Audit Azərbaycan" Məhdud Məsuliyyətli Cəmiyyəti KPMG "KPMG Audit Azerbaijan" Limited Liability Company

Nəsibə Muradxanova

KPMG Audit Azərbaycan MMC

Bakı, Azərbaycan Respublikası

31 may 2022-ci il

## "UNİBANK KOMMERSİYA BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### MALİYYƏ VƏZİYYƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
### 31 DEKABR 2021-Ci İL TARİXİNƏ
*(min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2021-ci il | 31 dekabr 2020-ci il |
|---|---|---|---|
| **AKTİVLƏR** | | | |
| Pul vəsaitləri və onların ekvivalentləri | 6 | 114,674 | 106,494 |
| ARMB-də yerləşdirilmiş məcburi ehtiyatlar | | 4,211 | 3,163 |
| Digər banklardan alınacaq vəsaitlər | 7 | 11,904 | 6,082 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | 8 | 659,047 | 501,281 |
| İnvestisiya qiymətli kağızları | 9 | 62,252 | 52,866 |
| Təxirə salınmış mənfəət vergisi aktivi | 25 | 5,153 | 4,414 |
| Bina və avadanlıqlar | 10 | 81,203 | 72,103 |
| Qeyri-maddi aktivlər | 10 | 15,574 | 15,313 |
| Digər maliyyə aktivləri | 11 | 34,543 | 24,964 |
| Digər aktivlər | 12 | 29,284 | 20,226 |
| **CƏMİ AKTİVLƏR** | | **1,017,845** | **806,906** |
| **ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | | |
| ÖHDƏLİKLƏR: | | | |
| Banklara və digər maliyyə təşkilatlarına ödəniləcək vəsaitlər | 13 | 47,075 | 19,907 |
| Müştəri hesabları | 14 | 719,706 | 548,653 |
| Müddətli borc vəsaitləri | 15 | 96,203 | 97,028 |
| Törəmə maliyyə öhdəlikləri | | 83 | - |
| Subordinasiya borcları | 18 | 25,641 | 16,036 |
| İcarə öhdəliyi | 16 | 6,914 | 4,157 |
| Digər öhdəliklər | 17 | 7,769 | 7,310 |
| **CƏMİ ÖHDƏLİKLƏR** | | **903,391** | **693,091** |
| KAPİTAL: | | | |
| Bankın sahiblərinə məxsus kapital: | | | |
| Səhmdar kapitalı | 19 | 130,686 | 125,686 |
| Səhm mükafatı | 19 | 484 | 484 |
| Digər ehtiyatlar | | (185) | 243 |
| (Yığılmış zərər)/bölüşdürülməmiş mənfəət | | (16,531) | (12,598) |
| **CƏMİ KAPİTAL** | | **114,454** | **113,815** |
| **CƏMİ ÖHDƏLİKLƏR VƏ KAPİTAL** | | **1,017,845** | **806,906** |

**İdarə heyəti tərəfindən:**

**Faiq Hüseynov**
İdarə Heyətinin Sədri
Bakı, Azərbaycan Respublikası

31 may 2022-ci il

**Faiq Zeynalov**
Baş maliyyə direktoru
Bakı, Azərbaycan Respublikası

31 may 2022-ci il

11-81-ci səhifələrdəki qeydlər hazırkı konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

## “UNİBANK KOMMERSİYA BANKI” AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### MƏNFƏƏT VƏ YA ZƏRƏR VƏ DİGƏR MƏCMU GƏLİR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(Əksi qeyd olunmadığı halda, min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2020-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| Effektiv faiz metodu ilə hesablanmış faiz gəliri | 20 | 118,307 | 94,113 |
| Faiz xərci | 20 | (43,320) | (29,513) |
| **Faiz qazanan aktivlər üzrə ehtimal olunan kredit zərərlərindən əvvəl xalis faiz gəliri** | 20 | **74,987** | **64,600** |
| Faiz qazanan aktivlər üzrə ehtimal olunan kredit zərərləri | 21 | (17,500) | (34,569) |
| **Xalis faiz gəliri** | | **57,487** | **30,031** |
| Haqq və komissiya gəliri | 22 | 29,451 | 21,067 |
| Haqq və komissiya xərci | 22 | (22,338) | (14,046) |
| Xarici valyuta əməliyyatları üzrə xalis gəlir | 23 | 1,970 | 2,518 |
| Törəmə maliyyə alətləri üzrə xalis zərər | | (83) | - |
| Digər aktivlər üzrə dəyərsizləşmənin bərpası/(zərəri) | 12 | 3,450 | (1,646) |
| Zəmanətlər və kreditlə bağlı öhdəliklər üzrə ehtimal olunan kredit zərərlərinin bərpası | 21 | 281 | 4,774 |
| İnzibati və digər əməliyyat xərcləri | 24 | (76,374) | (57,738) |
| İlkin dəyərləndirmədə müştərilərə verilmiş kreditlər və müddətli borc vəsaitləri üzrə ədalətli dəyər gəliri | 8,17 | - | 1,396 |
| Digər əməliyyat gəlirləri, xalis | | 5,838 | 1,008 |
| **Gəlir vergisindən əvvəl zərər** | | **(318)** | **(12,636)** |
| Mənfəət vergisinin bərpası/(xərci) | 25 | 412 | (4,139) |
| **İl üzrə xalis mənfəət/(zərər)** | | **94** | **(16,775)** |
| DİGƏR MƏCMU GƏLİR | | | |
| **Sonradan mənfəət və ya zərər üzrə yenidən təsnifləşdiriləcək maddələr** | | | |
| Borc investisiya qiymətli kağızları üzrə ədalətli dəyər (zərəri)/gəliri | 9 | (535) | 111 |
| Birbaşa digər məcmu gəlirdə qeydə alınmış mənfəət vergisinin bərpası/(xərci) | 25 | 107 | (22) |
| **İl üzrə digər məcmu (zərər)/gəlir** | | **(428)** | **89** |
| **İL ÜZRƏ CƏMİ MƏCMU ZƏRƏR** | | **(334)** | **(16,686)** |
| Hər səhmə düşən gəlir/(zərər), əsas və azaldılmış (AZN) | 26 | **0.002** | **(0.36)** |

**İdarə heyəti tərəfindən:**

**Faiq Hüseynov**
İdarə Heyətinin Sədri
Bakı, Azərbaycan Respublikası

31 may 2022-ci il

**Faiq Zeynalov**
Baş maliyyə direktoru
Bakı, Azərbaycan Respublikası

31 may 2022-ci il

11-81-ci səhifələrdəki qeydlər hazırkı konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

## KAPİTALDA DƏYİŞİKLİKLƏR HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
## 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(min Azərbaycan manatı ilə)*

| | Səhmdar kapitalı | Səhm mükafatı | Digər ehtiyatlar | Bölüşdürülməmiş mənfəət/ (yığılmış zərər) | Cəmi kapital |
|---|---|---|---|---|---|
| **1 yanvar 2020-ci il** | **125,686** | **484** | **154** | **9,260** | **135,584** |
| İl üzrə xalis zərər | - | - | - | (16,775) | (16,775) |
| İl üzrə digər məcmu gəlir (Qeyd 8, 24) | - | - | 89 | - | 89 |
| Elan edilmiş dividendlər | - | | | (5,083) | (5,083) |
| **31 dekabr 2020-ci il** | **125,686** | **484** | **243** | **(12,598)** | **113,815** |
| Buraxılmış səhmlər (Qeyd 19) | 5,000 | - | - | - | 5,000 |
| İl üzrə xalis mənfəət | - | - | - | 94 | 94 |
| İl üzrə digər məcmu zərər (Qeyd 8, 24 | - | - | (428) | - | (428) |
| Elan edilmiş dividendlər | - | - | - | (4,027) | (4,027) |
| **31 dekabr 2021-ci il** | **130,686** | **484** | **(185)** | **(16,531)** | **114,454** |

**İdarə heyəti tərəfindən:**

**Faiq Hüseynov**
İdarə Heyətinin Sədri
Bakı, Azərbaycan Respublikası

31 may 2022-ci il

**Faiq Zeynalov**
Baş maliyyə direktoru
Bakı, Azərbaycan Respublikası

31 may 2022-ci il

11-81-ci səhifələrdəki qeydlər hazırkı konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir.

## "UNİBANK KOMMERSİYA BANKI" AÇIQ SƏHMDAR CƏMİYYƏTİ

### PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ HAQQINDA KONSOLİDƏ EDİLMİŞ HESABAT
### 31 DEKABR 2021-Cİ İL TARİXİNDƏ BAŞA ÇATMIŞ İL ÜZRƏ

*(min Azərbaycan manatı ilə)*

| | Qeydlər | 31 dekabr 2021-ci il tarixində başa çatmış il üzrə | 31 dekabr 2020-ci il tarixində başa çatmış il üzrə |
|---|---|---|---|
| **ƏMƏLİYYAT FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Alınmış faizlər | | 120,556 | 88,836 |
| Ödənilmiş faizlər | | (35,233) | (27,479) |
| Alınmış haqq və komissiyalar | | 29,451 | 21,067 |
| Ödənilmiş haqq və komissiyalar | | (22,338) | (13,974) |
| Xarici valyuta üzrə xalis gəlir | | 2,567 | 2,491 |
| Əldə olunmuş digər əməliyyat gəliri, xalis | | 6,649 | 537 |
| Ödənilmiş inzibati və digər əməliyyat xərcləri | | (70,909) | (49,204) |
| Ödənilmiş mənfəət vergisi | | (986) | (1,600) |
| **Əməliyyat aktiv və öhdəliklərində dəyişikliklərdən əvvəl əməliyyat fəaliyyətindən daxil olan pul vəsaitlərinin hərəkəti** | | **29,757** | **20,674** |
| Əməliyyat aktivləri üzrə (artma)/azalma: | | | |
| ARMB-də yerləşdirilmiş məcburi ehtiyatlar | | (1,048) | 479 |
| Digər banklardan alınacaq vəsaitlər | | (5,857) | 909 |
| Müştərilərə verilmiş kreditlər və avanslar | | (182,377) | (68,981) |
| Digər maliyyə aktivləri | | (9,969) | (4,425) |
| Digər aktivlər | | 1,782 | (3,599) |
| Əməliyyat öhdəlikləri üzrə artma/(azalma): | | | |
| Banklara və digər maliyyə qurumlarına ödəniləcək vəsaitlər | | 27,205 | (10,368) |
| Müştəri hesabları | | 166,674 | (517) |
| Digər öhdəliklər | | 1,595 | 1,066 |
| **Əməliyyat fəaliyyəti üzrə əldə edilmiş/(istifadə edilən) xalis pul vəsaitləri** | | **27,762** | **(64,762)** |
| **İNVESTİSİYA FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| İnvestisiya qiymətli kağızları üzrə (satınalınma)/daxilolmalar, xalis | | (9,820) | 31,891 |
| Bina, avadanlıq və qeyri-maddi aktivlərin alınması | | (16,038) | (15,989) |
| Bina və avadanlıqların silinməsi üzrə daxilolmalar | | 829 | 243 |
| **İnvestisiya fəaliyyətləri üzrə (istifadə edilən)/əldə edilmiş xalis pul vəsaitləri** | | **(25,029)** | **16,145** |
| **MALİYYƏLƏŞDİRMƏ FƏALİYYƏTLƏRİ ÜZRƏ PUL VƏSAİTLƏRİNİN HƏRƏKƏTİ:** | | | |
| Müddətli borc vəsaitləri üzrə daxilolmalar | 15 | 18,630 | 22,323 |
| Müddətli borc vəsaitlərinin ödənilməsi | 15 | (21,426) | (3,790) |
| Subordinasiya borcları üzrə daxilolmalar | 15 | 25,500 | - |
| Subordinasiya borclarının ödənilməsi | 18 | (16,094) | (1,003) |
| İcarə öhdəliklərinin əsas hissəsinin ödənilməsi | 16 | (1,197) | (1,048) |
| Adi səhmlərin buraxılması | 19 | 5,000 | - |
| Ödənilmiş dividendlər | | (4,027) | (5,083) |
| **Maliyyələşdirmə fəaliyyətləri üzrə əldə olunan xalis pul vəsaitləri** | | **6,386** | **11,399** |
| Məzənnə dəyişikliklərinin pul vəsaitləri və onların ekvivalentlərinə təsiri | | (939) | (37) |
| Pul vəsaitləri və onların ekvivalentləri üzrə xalis artım/(azalma) | | 8,180 | (37,255) |
| İlin əvvəlinə pul vəsaitləri və onların ekvivalentləri | 6 | 106,494 | 143,749 |
| **İlin sonuna pul vəsaitləri və onların ekvivalentləri** | 6 | **114,674** | **106,494** |

**İdarə heyəti tərəfindən:**

**Faiq Hüseynov**

İdarə Heyətinin Sədri
Bakı, Azərbaycan Respublikası
31 may 2022-ci il

**Faiq Zeynalov**

Baş maliyyə direktoru
Bakı, Azərbaycan Respublikası
31 may 2022-ci il

UNİBANK KOMMERSİYA BANKI COMMERCIAL BANK

11-81-ci səhifələrdəki qeydlər hazırkı konsolidə edilmiş maliyyə hesabatlarının ayrılmaz hissəsini təşkil edir